# OĞUZ-TÜRK MİTOLOJİK DÜNYA MODELİNİN KURULMASINDA KUTSAL RAKAMLARIN ROLÜ VE ÖZELLİKLERİ

## The Role and Functions of Sacral Figures in Creation of Oghuz-Turkish Mythological Earth Model

**Ramazan Orucoğlu Qafarı***

**Özet**: Mekalede Oğuz-Türk mitolojisi ve Oğuz-Türk mitolojik dünya modeli "Oğuz kağan", "Kitab-ı-Dede Korkut" eposlarının motivleri esasında kurulur, "Avesta" eserindeki mitoloji strukturlarla mükayisesi veriliyor. Mitoloji Dünya modelinin sakral rakamlarla kurulması gerçeyi örneklerle gösteriliyor. Oğuz-Türk mitoloji Dünya modelinin ilk döneminin sona çatması Oğuzun 6 oğlunun doğulması ile alakalndırılıyor. "Avesta"da aynı strukturun Ahur-Mazdın 6 şüası ile yarandığı gösteriliyor. Oğuz-Türk mifoloji düşüncesinde 9 rakamının sakrallığı esaslandırılıyor: Oğuz + 2 eşi (biri Yerle, digeri Göyle bağlanıyor) + onların 6 oğlu – sonda 9 alınır. Avtorun düşüncesine göre, bu dönemde dünyanın esas katları formalaşıyor. İlkin olaraq sema-feza: günəş, ay ve yıldızlar meydana geliyor. Bu, dünyanın birinci üst katıdır. Sonra yer katı, denizler ve dağlar yaranıyor.

**Anahtar Sözcükler:** Oğuz-Türk mitolojisi, mitolojik dünya modeli, kutsal rakamlar, kozmogoni, totemizm.

***Abstract**: The Oghuz-Turkish mythology and oghuz-turkish mythological world model is restored on the basis of "Oghuz kaghan" and "The Book of Dede Gorgud" epos, compared wirh mythological structures of the "Avesta" work in the article. The cmposition of the structure of mythological world model by figures is shown with factual examples. The end of the first stage of Oghuz-turkish mythological world model is connected with the birth of Oghuz's six sons. Creation of the same structure with six rays of Ahur-Mazd is shown in the "Avesta". In the thought of the oghuz-turkish mythology the important role of the figure "9" is also reasoned. Oghuz plus his two wives (one of them is related to the earth, the other one to the sky) plus his six sons is nine. According to the author the main layers of the earth are formed in this stage. At first space-outer: the sun, the moon, and the stars appeared. It's the first layer of the earth. The vault of heaven, seas and mountains appeared later.*

***Keywords:** Oghuz-Turkic mythology, mythological earth model, sacral numbers, cosmogony, totemism.*

---

* Prof. Dr.-, Bakü, Azerbaycan Devlet Pedagoji Üniversitesi.

Eski çağlarda toplumun üzvleri tebietin hazır mehsulları ile kifayetlenmeyib özleri primitiv istehsala başlayanda ellerinin zehmeti ile yaratdıqlarının sayını günü-günden artırmış (yayın keşfi ile ox ucluqları, ekin-biçin üçün müxtelif aletler, kesici levazimatlar, ibtidai toxuculuq qurğuları ve s.), bu andan maddi varlıqları qruplaşdırmağa, bir-birinden ayırmağa, yaxşını pisden ferqlendirmeye ehtiyac duymuşdular. Belece inkişaf eden medeniyyetlerde reqemler mifoloji anlamlarla yanaşı gerçek funksiya da daşımağa başlanılmışdır. Reqemlerin sakrallıqla yozulan terefleri ise bedii yaradıcılıqda poetikliyi qüvvetlendirmek vasitesine çevrilmiş, epik enenede mifoloji ehvalatlarla, merasimlerde oyun-tamaşa, neğme ve reqslerle, inanc sistemlerinde ise fetişleşdirilen cisimlerle elaqelendirilib insanların meişetine, fealiyyetinin bütün sahelerine sirayet etdilmişdir. Sakral reqemler sistemleşdirilib ayrı-ayrı silsilelere ayrılmışdır.

Belece müxtelif yollarla derk olunan saylar bütövlükde bir-biri ile daxili qanunauyğunluqla bağlanaraq dünyanın mifoloji modelini meydana getirmişdir. V.N.Toporovun gösterdiyi kimi, «bütün obyektler (xüsusile sakral anlamlılar) müeyyen sistemde ierarxik vasitelerle bir-biri ile elaqelenir»[1]. Ümumiyyetle, mifik dünya modelinde her elementin reqemle öz işaresi mövcuddur ki, sonrakı medeniyyetlerde onlar feal metoforik dil faktoru kimi arxetipik simvol funksiyasını daşımışdır. Ayrı-ayrılıqda sayların birinin digerinden üstünlüyünün sebebi ise dünyanın yaranmasında hansı funksiyanı yerine yetiren ünsürü işarelemesinden asılı olmuşdur.

Deyilenleri esaslandırmaq üçün qedim Misir geliopol variantındakı «Doqquz böyük allah»la şertlenen mifik dünya modelini yada salaq:

Vahid (Atum-Ra) bir cütü - ikini (Şu ve Tefnutu), onlar da başqa cütü - ikini (Heb ve Nutu), bu cütler birleşib dördü (Osiris, İsida, Set ve Neftid) yaradırlar - hamısının bütövleşmesiden doqquz alınır. Mifde dünya reqemlerin növbeleşmesi, daha doğrusu, bir-biri ile bağlanaraq artması neticesinde formalaşır. Sakrallaşan reqemlerin sxemini qursaq, görerik ki, misirlilerin mifik tesevvüründe dünya 1, 2, 4 ve 9-un magik gücünün hesabına meydana gelir: 1 + (2 + 2) + 4 = 9 (*Cedvele bax*).




Eski Oğuz-Türk mifologiyasında bu üsulla yaranan başqa say sisteminde dünyanın daha dolğun, mükemmel ve tam modeline rast gelirik: Vahid başqa biri (Oğuzu) dünyaya getirir, ondan iki üçlük (toplumu altı edir) doğulur.

Birinci üçlük barede metnde deyilir ki, göyden şüa düşür. Oğuz görür ki, Güneşden işıqlı, Aydan parlaq işığın arasında gözel bir qız oturmuşdur. Başı qızıl qütb ulduzlu bu qızdan onun üç oğlu olur: Gün, Ay ve Ulduz. Üç qardaşın nesli sonralar Bozoxlar – pozuxlar adı ile tanınır.

İkinci üçlükle bağlı mifde gösterilir ki, Oğuz göl ortasında bir ağac görür. Ağacın oyuğunda gözel bir qız oturmuşdu. Gözleri göyden de göy, saçları dalğa kimi, dişleri inci tek olan bu qızdan da Oğuzun üç oğlu dünyaya gelir: Göy, Dağ, Deniz. Bu üç qardaşdan töreyen nesiller ise Üçoxlar adını daşıyır. Azerbaycan Türklerinin soy kökünde hem Bozox, hem de Üçox tayfaları iştirak edir.

Altılardan ise altı dördlük meydana gelir:

BOZOXLAR (pozuxlar). Oğuzun kosmosdan gelen qadından doğulan 3 oğlunun heresinin 4 oğlu dünyaya gelir. 12 neveden töreyen nesiller Oğuz Türklerinin sağ qanadı hesab edilir. Ona göre Bozoxlar adlanırlar ki, Oğuzun üç oğlu - Gün xan, Ay xan ve Ulduz xan atalarının tapşırığı ile dünyanı gezib qeyri-

adi varlıq axtararken bir qızıl yay tapırlar. Onu üçü öz arasında bölmeli idi. Lakin atalarının vesiyyetine göre qızıl yayı pozulmamış saxlayırlar. Vereseliye esasen bu yay üç qardaşın töremelerine çatırdı. Üç yere bölünüb pozulması yayı gereksiz bir eşyaya çevirir, magik gücünü - ox atmaq funksiyasını elinden alırdı. O sebebe de 3 oğlun ve 4 nevenin ardıcılları simvolik şekilde özlerini yayın üç parçası – pozuğu sayırdılar. Ve qızıl yay kimi bütövlüklerini – birlikde olmalarını nümayiş etdirirdiler. Bozoxlar öz aralarında dörd olmaqla üç qrupdan ibaret idiler:

Birinci dördlük Gün xanın övladlarıdır: Kayı, Bayat, Alkaravlı (Alka-evli), Qara Avul (Qara-evli);

İkinci dördlük Ay xanın övladlarıdır: Yazır, Doger, Dodurğa (Durdurqa), Yaparlı (Cayurlu);

Üçüncü dördlük Ulduz xanın övladlarıdır: Avşar (Efşar), Kızık, Begdili, Karkın (Bayat, Efşar, Begdili sonralar esasen Azerbaycan Türklerinin içerisinde erimişdir);

ÜÇOXLAR - Oğuzun Yer qızından (onu su ve ağacla elaqelendirirler) doğulan oğlanları Göy xan, Dağ xan ve Deniz xanın dünya seyahetinde tapdıqları üç qızıl oxu bildirir. Oğuzların sol qanadı da 12-dir, eyni ile 3-ün 4-e nisbeti ile artıb çoxalır:

Dördüncü dördlük Göy xanın övladlarıdır: Bayandur, Beçene (Peçeneq), Çavuldur, Çepeni;

Beşinci dördlük Dağ xanın övladlarıdır: Salur, Eymur, Alayurtlu, Üregür;

Altıncı dördlük Deniz xanın övladlarıdır: İqdır, Begdüz, Yıva, Kınık. Bu boylardan Bayandur, Beçene, Çavuldur, Salur, Alayurtlu, Begdüz Azerbaycan Türklerini formalaşdıran tayfalardandır.

Qedim Oğuzların Bayandur, Salur ve Efşar soyu Azerbaycan tarixinin müxtelif dönemlerinde ictimai-siyasi hadiselerde, Bayat ise Türklerin medeni heyatında böyük rol oynamışdır.

Belece kainatın Oğuz-Türk mifik modelinde dünyanın ve Oğuz cemiyyetinin formalaşmasının başlanğıc merhelesinde 1, 2, 3, 4, 5, 6, 7, 9, 12, 24 ve 33 sayları iştirak edir; her biri dünyaqurmada daşıdığı müeyyen rola göre digerinden seçilib sakrallaşır. Başqa primitiv mifoloji sistemlerden ferqli olaraq Oğuz-Türk sakral say sisteminde onluq reqemler de nezere çarpır. Say etibarı ile de sakrallıq funksiyasını öz üzerine götüren reqemler diger mifoloji sistemlerle müqayisede daha çoxdur, müxtelif yozumlu ve ferqlidir.

Oğuz-Türk panteonunda iştirak eden reqemleri ve onların funksiyalarını nezerden keçirek:

Bir (1) – Yaradıcının işaresidir; mifde er / OĞUZu - kişi başlanğıcı bildirir.

İki (2) – Oğuzun arvadları - qadın başlanğıclardır // Oğuz soyunun qollarını ve yerle göyün birliyini - vehdetini şertlendirir.

Üç (3) – [1 (Vahid –Tanrı; Oğuz - er) + 2 (1-ci arvad - göyden yere enen işıq şüası + 2-ci arvad – ağac ve su) = 3] Oğuzun evliliyini ve maddi dünyanın qurulmasını gösteren sakral reqemdir. Köy ve yer qadınlarından doğulan oğlanlar - Kosmos ve Yerdır. Ümumiyyetle, Oğuz Türk mifinde 3 sakral üçlük mövcuddur: birinci üçlük: Oğuz ve iki arvadı; ikinci üçlük: kosmosla bağlanan üç oğul (Gün xan, Ay xan, Ulduz xan); üçüncü üçlük: yer ve onun orbiti ile elaqelenen üç oğul (Göy xan, Dağ xan, Deniz xan).

Dörd (4) – Oğuzun her oğlundan olan nevelerin sayı // ilkin ünsürler, dünyanın terefleri – istiqametleri nezerde tutulur. Mifde gösterilir ki, Oğuzun neveleri yer üzünün şimalında, cenubunda, şerqinde ve qerbinde meskunlaşırlar.

Beş (5) – Oğuzun bir oğlu ve ondan doğulan 4 nevesidir.

Altı (6) – Oğuzun oğlanlarının ve şecerenin ikinci neslinin cemidir [3/3] – kosmosla Yer küresinin vehdeti demekdir.

Yeddi (7) – Oğuzun her qanadının başında duran 3 oğlu ve onların her birinin 4 nevesinin (3+4) işaresidir. İlkin tayfa birliklerinin terkibini bildirir.

Doqquz (9) – Oğuz-Türk şeceresinin ilk neslinin simvoludur. Daha doğrusu, Dünyanın tam mifik modelidir. 3 [1+2 (1+1)=3] + 6 [Her arvaddan doğulan 3 oğlu (3 + 3)] = 9.

On iki (12) – Oğuz tayfalarının qollarının, Bozox ve Üçox tayfa birliklerinin sayıdır. [12+12].

İyirmi dörd (24) – Oğuzun nevelerinin, şecerenin üçüncü nesline daxil olan soyların cemidir; tafaların bölünmezliyini simvollaşdırır. Otuz üç (33) – Qalın Oğuz elini (9+24 = 33) menalandırır. Mifoloji anlamda Göy Tanrısının öz yaratdıqları ile vehdetidir:

9 [1+2 (1+1) + 6 (3 + 3) ] + 24 [HER OĞLUNDAN 4 TORUN - NEVE (6 X 4)] = 33.

Onu da vurğulamaq lazımdır ki, 24-ün tayfa birliyini simvollaşdırması tekce Oğuz panteonu ile mehdudlaşmırdı. Prototürklerin ekseriyyetinde özüne yer alırdı. L.Qumilev Biçurine istinaden yazırdı ki, «Şan Yu Metenin ordusu da 24 nesle bölünürdü» [2, 89]. Herodot ise skiflerin 24 tayfaya mexsusluğunu bildirirdi. Demeli, gösterdiyimiz sxemler çox derin qatlardan geldiyi üçün Türkün bir qanadına aid deyil, ümumiyyetle, ümumtürk düşüncesinin mehsuludur ve bu sistemin davamını da müeyyenleşdirmek mümkündür.

Orta esr tarixçisi F.Reşideddine göre,
Gün xanın her dörd oğlundan 1,
Ay xanın her dörd oğlundan 2,
Ulduz xanın her dörd oğlundan 3,

Göy xanın her dörd oğlundan 4,
Dağ xanın her dörd oğlundan 5,
Deniz xanın her dörd oğlundan 6 övlad dünyaya gelmişdi [3, 218].

Bu reqemlerin cemi 21-dir (1+2+3+4+5+6=21). Nezere alsaq ki, Oğuzun 6 oğlunun her birinin 4 övladı vardı, onda Ulu Atanın neticelerinin sayı aşağıdakı şekilde sistemleşdirilir:

Deniz xandan (6 x 4) 32,
Dağ xandan (5 x 4) 20,
Göy xandan (4 x 4) 18,
Ulduz xandan (3 x 4) 12,
Ay xandan (2 x 4) 8,
Gün xandan ise (1 x 4) 4 neticesi var idi.

Ümumilikde şecerenin dördüncü neslinin nümayendeleri (32 + 20 + 18 + 12 + 8 + 4) 94 nefer idi. Dörd neslin üst-üste gelmesi (6 + 24 + 94) 124 edir. Ve bu reqeme bir kişi, iki qadın başlanğıcları da artırsaq, son netice (124+3) 127 alınır.

Eski tarixi qaynaqlarda Ağqoyunlular dövletinin başçısı Uzun Hesenin nesil şeceresinden behs açarken yazılır: «Bayandur xan ki, bu tayfa özünü onun nesli hesab edir, Gün xan ibn Oğuz xanın oğludur; Oğuz xan Hesen padşahın **elli birinci** babasıdır» [4, 7]. Demeli, XV yüzilliyedek Oğuzun 51 nesli ömür sürmüşdür. Her nesle orta hesabla 50-60 yaş versek, Uzun Hesenle Oğuz xanı texminen 3 min illik mesafe ayırır. Bu da b. e. e. II minilliyin evvellerine tesadüf edir. Ona göre de Oğuzun bele uzaqlıqdan Mete dövrüne getirilmesi inandırıcı görünmür.

Göründüyü kimi, qedim misirlilere aid mifik dünya modelinin qurulması sakral doqquz reqemi ile başa çatır. Türklere mexsus strukturda ise birinci merhelede alınan cem doqquzdur, kainat bütün elementleri ile otuz üçle meydana gelir. Bir meseleni de açıqlamaq lazımdır ki, çox hallarda Oğuz yaradıcı kimi götürülür ve ziddiyyet ortaya çıxır. Kişi-qadın başlanğıclar bezi meqamlarda eynileşdirilir. Faktiki olaraq elde olan variantlarda qadınlar ancaq altı oğulun – dünyanın ve kosmosun formalaşmasında iştirak edirler. Sonra meydandan çıxarılırlar. Elece de iki istiqametli qadın başlanğıcının kökü kenar dünyalarla bağlanır. Daha doğrusu, göyün yuxarı qatındakı Esas Yaradıcının ehatesinden gelir. Bu, Oğuzun tanrıçılığına inamın üstünden xett çekir, ya da çox derin qatlarda bele tesevvür Türk soylarının ancaq bir hissesinde mövcud olmuşdur.

Oğuz mifinin elde olan esas iki qaynağının birinde («Oğuz kağan» eposunun uyğur variantında) gösterilir ki, Oğuzun qadınlarla evvelceden heç bir elaqesi ve tanışlığı olmamışdır. Özü de heresi bir inancdan – biri animistik (kosmosa aid cisim canlandırılır), digeri ise totemistik (insan ağacdan doğulur) görüşlerden miras qalmışdır. Doğrudur, mifin islam görüşleri ile qohumlaşdırılan

F.Reşideddine aid diger qaynağında (Oğuz Nuhun oğlu Yafesin töremesi kimi teqdim olunur) Oğuzun öz emisi qızı ile evlenmesine işare var. Bele ki, arzularının gerçekleşmesinde ona kömek eden qadın Allaha penah getirib öz doğmalarından üz dönderir. Hemin xettin Oğuz Türklerinin islamı qebul etmesinden sonra mifoloji hadiselere artırılması şübhesizdir *(Cedvele bax).*

Ümumiyyetle, indiyedek Türk ve bezi Rus alimlerinin fikri bundan ibaret idi ki, Oğuzların en uğurlu ve esas sakral reqemi 24-dür, çünki tayfa birliyi bu reqemle tamamlanır. Eslinde ise Oğuz ve ümumtürk mifoloji sisteminde 24 - mifik dünyanın yaranmasında mövcud olan iki merheleden ancaq birinde iştirakçıdır ve bütövlükde götürende esas rol onun deyil, son neticenin – 33-ün üzerine düşür. Başqa sözle, 24 müqeddesliyin zirvesi hesab edilende Oğuzun özü, iki arvadı ve altı oğlu kenarda qalır. Delilleri ümumileşdirende aydınlaşır ki, Oğuz-Türk mifik dünya modelinin ilk merhelesi Oğuzun 6 oğlunun doğulması ile başa çatır: Oğuz + iki arvadı + onların altı oğlu – neticede 9 alınır.




Eslinde bu merhelede dünyanın esas qatları formalaşır. İlkin olaraq kosmos-feza: güneş, ay ve ulduzlar meydana gelir. Bu, dünyanın birinci qatıdır. Sonra göy tebeqesi, denizler ve dağlar yaranır. Qeribe orasıdır ki, Göy ikinci

üçlüyün başında dayanır ve Kosmosla Yer qatına – Dağ ve Denize vasiteçilik misiyasını öhdesine götürür. İlk baxışda adama ele gelir ki, bu strukturda dünyanın esas elementi – Yer üstü torpaq çatışmır. Ev-yurd, yaşayış menteqeleri, şeherler salmaq üçün esas mekan – çöllükler, düzenler de yoxdur. Lakin diqqet etdikde görürük ki, mifik dünya modelinin qurulmasının ikinci merhelesi mehz yerin – mekanın atributlarının meydana gelmesine hesr olunur. Orada daha çox insandan – Türk soylarının yaranmasından, yurd yerlerinden behs açılır. Eger Oğuzların 33-lük sakral say sisteminde mifik dünya modelinin kosmosla elaqelenen hissesinin yaranması doqquz (1 +2 + 6 = 9 – Oğuz, iki arvadı ve oğlanları: Gün, Ay, Ulduz, Göy, Dağ, Deniz) reqeminde tamamlanırsa, qedim misirlilerin «Doqquz Böyük Allah» metninde anoloji funksiya «beş»in (Güneş – Atum-Ra, onun övladları qadın Nut – Göy, kişi Heb –Yer, oğlan Şu – hava, qız Tefnut – su) öhdesine buraxılır.

«Avesta»da göy qatı ile bağlanan birinci tanrılar qrupu Ameşa-Spentadır (Ölümsüz müqeddesler). Bu, Ahur-Mezdin - Müqeddes ruhun (Spenta-Maiyu) kömekliyi ile bütün varlıqlardan önce yaratdığı altı şüasının – kömekçisinin özü ile birliyine (yeddilik) verilen ümumi addır. Ali ilahi yeddilik Zaratuştrun (Serdüştün) yozumunda sadəce olaraq yeddi «Ölümsüz Müqeddeslər» – «Ameşa Spenta» deyildi, hem de Ahur-Mezdin xeyirxah xüsusiyyetlerinin alleqorikleşdirilmesi idi. Onun keyfiyyetinin altı şölesi – xoşbextlik getiren düşünceler, heqiqet (düzlük), hökmranlıq, hakimiyyet (ilahi), möminlik, bütövlük (sağlamlıq, rifah) ve ölümsüzlük - uyğun olaraq altı esas ilkin varlıqlarla (ünsürlerle) elaqelendirilirdi: mal-qara, od, metal, torpaq, su və bitki. *(Cedvele bax).*

| SAYI | AHUR-MEZDİN KEYFİYYETLERİ | DÜNYANIN İLK ÜNSÜRLERİ İLE BAĞLILIĞI | ELAQENİN ELAMETLERİ |
|---|---|---|---|
| 1. | Xoşbextlik getiren düşüncelər | Mal-qara | Bolluq, bereket, var-dövlət |
| 2. | Heqiqet (düzlük) | Od | İnkişaf, mədəniyyət, meneviyyat, işıq, istilik, mülayimlik |
| 3. | Hökmranlıq, hakimiyyet (ilahilik) | Metal | Güc, berklik, qetiyyet |
| 4. | Möminlik | Torpaq | Maddilik, müqeddeslik |
| 5. | Bütövlük (sağlamlıq, rifah) | Su | Həyat, canlılıq, temizlik, saflıq |
| 6. | Ölümsüzlük | Bitki | Gözellik, ebedilik. |

Tanrılarla bağlı elametlər cədvelde Ahur-Mezdin xarakterinin cizgileri kimi gösterilir. O, özüne aid keyfiyyetleri ve varlıqları yaratdığı ilk altı tanrı ile bölüşür:

1) Vohu-Man («Xoşbextlik getiren fikir» deməkdir);
2) Aşa-Vahişt («En böyük heqiqet»);
3) Spenta-Armayt («Müqeddes möminlik»);
4) Hşatra-Varya («Arzuların hökmranlığı»);
5) Harvatat («Bütöv», yaxud «Bütövlük»);
6) Ameretat («Ölümsüzlük»).

Belelikle, birinci qrupda başda Ahur-Mezd qatılmaqla «Yeddi hemxilqət» yaradılır və onlar birlikde yeddi en mühüm uğurlu yaranışa: insan, bitki, mal-qara, su, od, torpaq, havaya hamilik edirler.

Struktur baxımından eyni halla Oğuz-Türk tanrı panteonunda da rastlaşırıq. Ahur-Mezd 6 şüası ile birlikde dünyanın bütün maddi tereflerini – formalaşdırdığı kimi Oğuz da 6 oğlu ile eyni funksiyanı (göyün ve yerin əsas elementlerini yaradır) yerine yetirir:

| SAYI | *AVESTA*'DA | | | *OĞUZ KAĞAN*'DA |
|---|---|---|---|---|
| | | *Hamilik etdikleri varlıqlar* | | |
| 1 | AHUR-MƏZD | insanlıq | insan | OĞUZ |
| 2 | Birinci şüa: Vohu-Man («Xoşbextlik getiren fikir») | od | gün | Birinci oğul: Gün xan |
| 3 | İkinci şüa: Aşa-Vahişt («En böyük heqiqet») | mal-qara | ay | İkinci oğul: Ay xan |
| 4 | Üçüncü şüa: Spenta-Armayt («Müqeddəs möminlik») | bitki | ulduz | Üçüncü oğul: Ulduz xan |
| 5 | Dördüncü şüa: Hşatra-Varya («Arzuların hökmranlığı») | hava | göy | Dördüncü oğul: Göy xan |
| 6 | Beşinci şüa: Harvatat ("Bütöv», yaxud «Bütövlük» | torpaq | dağ | Beşinci oğul: Dağ xan |
| 7 | Altıncı şüa: Ameretat («Ölümsüzlük») | su | dəniz | Altıncı oğul: Deniz xan |
| **Cəmi** | YEDDI HƏMXILQET | bütöv dünya | bütöv dünya | YARADICI + KOSMOS-YER |

Her iki mifik dünya modelinin başlanğıc merhelesinin sxemine nezər salsaq görerik ki, onların kökü eynidir *(Sxeme bax).*

Bir cehete de diqqet yetirek: Türk-Oğuz sakral say sisteminde mifik dünya modelinin formalaşmasında iştirak edenlerin hamısı ikinci merhelede ancaq kişilerdir, lakin misirlilerde Güneş tanrısı Atum-Ranın övladlarının ikisi qız (Nut

ve Tefnut), ikisi ise oğlandır (Heb ve Şu). Neslin davamı üçün bacı-qardaşla evlenir. Oğuzun özü, oğlanları ve neveleri daha sivil hereket edirler, onlar qan qohumları ile aile qurmurlar. Lap başlanğıcda iki möcüzeli qadın kenar dünyalardan gelib analıq vezifelerini yerine yetirmekle meydandan çekilirler. Bu, belke de Dünya mifoloji sistemlerinde yegane haldır. Sonrakı proseslerde qadın teref tamamile nezerden qaçırılır, yeni Oğuzun oğlanlarının kimlerle evlendiyi barede melumat dumanlı qalır, erler bütün hallarda önde gedirler.

**_AVESTA_DA VƏ _OĞUZ KAĞAN_ EPOSUNDA DÜNYA MODELİNİN STRUKTURU**




Faktlar gösterir ki, Azerbaycanda reqemlerin sakrallığı hemişe diqqet merkezinde olmuşdur. N.Gencevi XII yüzillikde «Reqemler remzinin taxtasında Nücuma aid bütün yazıları oxuduğunu» [5, 15] yazırdı. O, reqemlerin simvollaşması – sakrallığı barede nücum elmindeki bilikleri derinden menimsemiş ve yaddaşlardan götürdüyü mifik görüşler esasında formalaşan müqeddes saylar (1, 2, 3, 4, 5, 7, 9) esasında poetik fiqurlar yaratmışdır. «Bir» sayına canlı varlıq kimi müraciet ederek (şexslendirerek) onu mifopoetik menada Allahla eynileşdirmişdir:

«Sayın evvelinde (bütün) birincilerin birincisisen,
İşlerin sonunda bütün axırıncıların axırıncısısan» [6, 17].

Şair Yaradıcının ikili xüsusiyyetini «birinci-axırıncı» arxetipik simvollarını qarşılaşdırmaqla üze çıxarırdı. Çünki Tanrı merhemetli olmaqla beraber hem de qezebli ve cezalandıran idi. O, cennetle yanaşı cehennemi de yaratmışdı. Nizamiye göre, tanrı sayların birincisi ve en böyüyüdür. Her şeyin bünövresi Vahidle qoyulmuş, bütün varlıqlar Vahidden töremiş ve bütün yerde qalan varlıqlar – reqemler Vahidin etrafında daim dolanmaqla dünyanın bütövlüyünü temin etmişdir. Çox hallarda Nizaminin nezerinde «iki» «Avesta»dakı dualizmi menalandırdı. Şair dünyadakı eksliklerin bir-biri ile elaqelendirilmesinden danışanda da «iki» reqemine üz tuturdu:

«Ancaq ne edim ki, hava iki renglidir,
Fikir geniş, sinem ise dardır» [6, 36].

Ümumiyyetle, Nizaminin eserlerinde sakral reqemlerin işlek dairesi çox genişdir. Müasirlerinin ve özünden sonra gelen senetkarların heç birinin yaradıcılığında onun qeder saylara müraciet eden, onların sakrallığına söykenib fikrini daha obrazlı, anlaşıqlı ifade eden olmamışdır. Bu sebebden de şairin poemalarının poetik strukturunda reqemlerin rolu ve ehemiyyeti ayrıca araşdırılmalıdır. «Xemse»deki resmi hisselerde dini mövzulardan yazması, medhnamelerde hökmdarları terif lemesi, özü ve ailesi barede melumat vermesi qayesine, meramına göre bir-birinden tamamile ferqli mövzular olsa da, her birinde meqamı düşen kimi fikirlerini sakral reqemlerle ifade etmişdir, elece de ayrı-ayrı mesnevilerindeki epik tesvirlerde onlardan poetik vasite kimi gen-bol faydalanmışdır. Nizami Azerbaycan xalqının mifologiyasına, inanclarına beledliyini nümayiş etdirmekle yanaşı miflerin qedimliyine, zenginliyine ve ehateliliyine heyretini gizletmemişdir. O, deyirdi ki, «Yeddi xezinenin [yeddi göyün] qapısını [sen] açdın. Dörd gövhere qedem basdın...» Bezen bir beytinde bir neçe sakral reqemi bir-biri ile elaqelendirmekle bütöv mif strukturunu yazı yaddaşına köçürürdü. Meselen: «O, yeddi meclisin, doqquz beşliyin Yusifi, Hem zamanın valisi, hem de veliehdidir». Xristian ve islam dünyasında Yusif haqqında çoxsaylı mifoloji ehvalatlar yaranmışdır ve Azerbaycanda onun möcüzeleri barede bu gün de xalq arasında efsaneler dolaşmaqdadır. Yusif haqqında mifde yeddi, doqquz ve beş reqemleri ele sakrallaşmışdır ki, Şerqin ve Qerbin bütün mütefekkirleri öz yaradıcılıqlarında ona üz tutmaq mecburiyyetinde qalmışlar.

Meşhur «Mende sığar iki cahan, men bu cahana sığmazam» [7, 115] misrasını sakrallığın, mifopoetikliyin en yüksek nümunesi hesab etmek olar. Tekce

Nesimi (1369-1417) yaradıcılığı imkan verir ki, Azerbaycan mifologiyasının mükemmel strukturlara malikliyinden söz açaq. Diqqet edin: misrada işlenen ilk birde (allahın zerresi olan insanda) iki (gerçek dünya ve menevi dünya) yerleşir, lakin onun özü üçüncü birde cismine yer tapmır. Göresen, ne sebebe? Çünki birinci bir tek deyil, onda iki dünya yerleşmekle üçleşmişdir. Mifik görüşlerde bir-üç bağlılığı qarşıdurmanın, ziddiyyetin zirvesi sayılır. Eslinde mifik anlamda üçden başqa diger reqemler (dünyanın elementleri) birin (bütövün, vahidin) içerisinde eridilir. Elece de inanclarımıza göre, iki vahidi, yeni iki yaradıcını – iki dini idiologiyanı bir nöqtede birleşdirmek mümkünsüzdür. Demeli, şair insanı allahlaşdırmağa teşebbüs gösterir. Bu, Türkünçox derin qatlardakı Atalar kultundan gelirdi ve islama zidd mövqede duran baxış idi. Diger terefden, Nesimi müselman görüşleri ile tam razılaşırdı. Belke bu sebebden çox ehtiyatlı terpenirdi: kamil insanı tanrının özü ile deyil, bir-iki mühüm xüsusiyyeti ile (düşünmek ve yaratmaq qabiliyyeti ile) eynileşdirirdi. Ve Nesimiye qarşı din xadimlerinin etirazının mayasında o dururdu ki, şair Allahla üst-üste düşen cehetlerini vermekle İnsanın öz daxilinde real ve mifik dünyalardan ibaret daha möhteşem bir alem yaratdığını vurğulayırdı. Mehz bu menada Nesimi kamil, yetkin insanı da vahid sayır ve onda ikini, daha doğrusu, iki biri yerleşdirmek isteyir. İki vahidi (iki yaradıcı anlamında) ise bir-birine qovuşdurmağa heç bir qüvvenin qüdreti çatmırdı. Tesadüfi deyil ki, Şerq müneccimleri ve astroloqlar on biri (11) en ziddiyyetli, uğursuz reqem sayırlar. Çünki on birde de - Nesiminin ireli sürdüyü kimi, iki bir yanaşı işlenir

Belelikle, müeyyen çağlarda ulu ecdadın mifik tefekkürü ele merheleye çatmışdır ki, o, adi danışığında, söylemelerinde reqemlerle çatdırmaq istediyi bütün hadiseleri mifik dünya modelinin meydana gelmesi prosesine uyğunlaşdırmışdır. Diqqet edin, ehvalatlar vahidle başlayır: «Biri varımış, biri yoxumuş, allahdan başqa heç kes yox imiş» [8, 149]. Sonra bir namelum ölke ile ikileşir, o ölkenin padşahı (yaxud şahzadesi, taciri, ovçusu, ekinçisi ve s.) meydana getirilmekle ise üçleşir: «Göyün altında, yerin üstünde bir şah oğlu var idi» [9, 73] ve primitiv de olsa, mifik dünya modeli (allah-yer-insan) qurulur. Ekser nağıllarda başlanğıcda qoyulan 3 reqemi süjet boyu bütün hadiseleri müşaiyet edir: Padşahın bağındakı «alma ağacı birinci gün çiçek açarmış, ikinci günde çiçeyini tökermiş, üçüncü günde bar verermiş» [10, 51]. Sonra üç oğul meydana atılır. Meyvelerin qorunmasına üç defe teşebbüs edilir. Şahın oğlanları quyuya düşmek isteyirler. Lakin böyük ve ortancıl qardaşlar acizlik gösterirler. Kiçik qardaş ise quyuya enib üç dev ve üç qızla rastlaşır. Her devin ayağını üç defe xencerle delir. Üç gün, üç gece onlarla vuruşur, qelebe çalır ve s.

Reqemlerin mifoloji esasları ilkin dünyagörüşünün mehsuludursa, hesab ve hesablama strukturları nisbeten sistem halda bir qeder sonrakı çağlarda - arxaik

medeniyyetlerin formalaşması başa çatanda meydana atılmış, bundan sonra saylar hem de gerçek, heqiqi menada derk olunmuşdur.

## Kaynaklar:

1. Toporov, V. N. - *Топоров В.Н. Числа. / В кн.: «Мифы народов мира». Энциклопедия в 2-х томах. Том II. – М.: Советская энциклопедия, 1992, с. 629-630* (rus dilinde).

2. Qumilev, L.N. - *Гумилев Л.Н. История народа гунну. В 2 книгах. Книга 1. – ОО «Издательство АСТ», 2002, с. 89* (rus dilinde).

3. Rəşidəddin Fəzlullah.

4. *Tarix-i qezelbaşan (Qızılbaşlar tarixi).* Fars dilinden çevireni M.E.Mehemmedlinindir. – B., «Azerbaycan» neşriyyatı, 1993.

5. Nizami Gencevi. *Sirler xezinesi.* Filoloji tercüme prof. R.Aliyevindir. –B., 1981.

Nizami Gencevi. *Leyli ve Mecnun.* Filoloji tercüme, izahlar ve qeydler prof. Rüstem Eliyevindir. – B., Elm, 1983.

6. Nesimi İmadeddin. *Men bu cahana sığmazam.* Seçilmiş eserleri. Tertib edeni E.Seferlidir. – B., Genclik, 1991.

7. *Azerbaycan folkloru antologiyası.* İki kitabda. Birinci kitab. Toplayanı və tertib edeni A.Axundov. – B., Elm, 1968.

8. *Azerbaycan mifoloji metnleri.* Tertib edeni, ön söz ve şerhlerin müəllifi A.Acalov. – B., Elm, 1988.

9. *Nağıllar.* Tertib edeni N.Seyidov. Azerbaycan edebiyyatı incileri. On iki kitabda. Birinci kitab. – B., Yazıçı, 1985.